## Azərbaycan Hüquqşünasları Forumunun İdarə Heyətinə namizədlərin SİYAHISI

***(III heyət)***



**Aynur Mahmud qızı Cəfərova**

12 yanvar 1981-ci ildə Ağdam rayonunda anadan olub.

2000-2004-cü illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr pilləsində, 2004-2006-cı illərdə cinayət Hüququ, Cinayət Prosesi, Kriminalistika və Məhkəmə Ekspertizası ixtisası üzrə magistr pilləsində təhsil alıb.

2006-2007-ci illərdə ATƏT-in Bakı Ofisinin dəstəyi ilə Hüquq Maarifçiliyi Cəmiyyəti tərəfindən həyata keçirilən Məhkəmələrin Monitorinqi layihəsində milli koordinator vəzifəsində çalışıb.

2007-2008-ci illərdə Amerika Hüquqşünaslar Assosiasiyasında (ABA-ROLİ) Cinayət Hüququ Proqramı üzrə hüquqşünas vəzifəsində çalışıb.

2008-2009-cu illərdə Norveç Krallığının Oslo Universitetində Beynəlxalq Ümumi Hüquq üzrə ikinci magistr təhsili alıb.

2009-cu ildən ATƏT-in Bakı Ofisinin dəstəyi ilə Tender Monitorinq Mərkəzi tərəfindən həyata keçirilən "Azərbaycanda Məhkəmələrin Monitorinqi" layihəsi üzrə koordinator vəzifəsində çalışır.

*Namizədliyi Tender Monitorinq Mərkəzi İctimai Birliyi tərəfindən irəli sürülüb.*



**Aynurə Müqəddəs qızı Gözəlova**

16 avqust 1980-ci ildə Füzuli rayonunda anadan olub.

2000-2004-cü illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakültəsinin bakalavr pilləsində, 2004-2006-cı illərdə magistratura pilləsində təhsil alıb.

2006-2007-ci illərdə "Leqat" Hüquq Firmasında hüquqşünas vəzifəsində çalışıb.

2008-ci ilin yanvar ayından hazırkı vaxta qədər Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyində hüquqşünas vəzifəsində çalışır.

*Namizədliyi Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyi tərəfindən irəli sürülüb.*



**Anar Elman oğlu Qasımov**

27 may 1982-ci ildə Bakı şəhərində anadan olub.

2003-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bakalavr pilləsi üzrə, 2005-ci ildə isə, magistratura pilləsi üzrə bitirib.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-hüquqi tədqiqatlar institutunun dissertantıdır.

2003-2009-cu illər ərzində "Biznes Hüquq Servis" hüquq firmasında, "Potensial" SMB-də və ABA CEELİ Hüquqi yardım mərkəzində hüquqşünas vəzifəsində işləyib.

2009-cu ildən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvüdür.

Ailəlidir, iki oğlu var.

*Namizədliyi İctimai Maraqlar Naminə Vətəndaş Təşəbbüsü Birliyi tərəfindən irəli sürülüb.*



**Akif Əkbər oğlu Əlizadə**

1965-ci ildə anadan olub.

1984-cü ildə Bakı Politexnik Texnikumunu bitirib. 1991-1995-ci illərdə Göyçay rayon məhkəməsində iclas katibi işləyib. 1995-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1995-ci ilin oktyabr ayından bu vaxtadək Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

Bakı şəhəri 14 saylı Hüquq məsləhətxanasında vəkil işləyir.

İnsan Hüquqları üzrə Hüquqşünaslar Komitəsinin sədridir.

Ailəlidir, bir oğlu və bir qızı var.

*Namizədliyi Azərbaycan Hüquqçular Assosiasiyası tərəfindən irəli sürülüb.*




**Erkin Qədirli**

13 may 1972-ci ildə doğulub.

1990-cı ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.

1994-2006 illərdə Bakı Dövlət Universitetinin Hüquq və Beynəlxalq Münasibətlər fakültələrində müəllim işləyib.

Müxtəlif vaxtlarda Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar üçün, həmçinin çeşidli milli və beynəlxalq layihələrdə və işçi qruplarda ekspert kimi çalışıb.

1998-ci ildə (15 iyun - 17 iyul) Beynəlxalq Cinayət Məhkəməsinin təsis olunmasına dair Romada keçirilmiş BMT-nin Diplomatik Konfransında Azərbaycanın nümayəndə heyətinin üzvü olub.

1999-cu ildə Almaniyada nəşr edilmiş "Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin Şərhi" ("Commentary on the Rome Statute of the International Criminal Court") kitabının müəlliflərindən biridir.

25 dekabr 2008-ci ildə yaradılmış "Respublikaçı Alternativ" (REAL) vətəndaş birliyinin həmtəsisçisidir.

Ailəlidir.

*Namizədliyi Selcan Məmmədli tərəfindən irəli sürülüb.*



**Ələsgər Əhməd oğlu Məmmədli**

1968-ci il mayın 24-də Ağdam rayonunda anadan olub.

1995-ci ildə İstanbul Universitetinin hüquq fakültəsini bitirib.

1997-1998-ci illərdə İstanbul Barosunda (Vəkillər Kollegiyası) Vəkillik Təhsil Mərkəzini bitirib və İstanbulda vəkil kimi fəaliyyət göstərib.

2001-ci ildə Türkiyə və Yaxın Şərq Dövlət İdarəçiliyi İnstitutunda İdarəetmə və hüquq üzrə magistr təhsili alıb.

2002-ci ildən 2005-ci ilədək İnternyus Network təşkilatında Media Hüququ sahəsində fəaliyyət göstərib.

2005-ci ildən bəri İREX-in hüquqşünasıdır.

2009-cu ildən BDU-nun jurnalistika fakültəsində Media Hüququ üzrə müəllim işləyir.

Ailəlidir, bir oğlu və bir qızı var.

*Namizədliyi Media Hüququ İnstitutu tərəfindən irəli sürülüb.*



**Əlövsət Xudu oğlu Əliyev**

25 yanvar 1961-ci ildə Yardımlı rayonunda anadan olub.

1968-ci illərə orta məktəbdə oxuyub. 1979-81-ci illərdə hərbi xidmətdə olub. 1983-1988-ci illərdə BDU-nin hüquq fakültəsində əyani təhsil alıb. 1988-1999-cu illərdə Daxili işlər orqanlarında xidmət etmişdir. Müstəntiq, polis 1999-cu ildən təsis olunmuş Miqrantlara Hüquqi Yardım Mərkəzinin direktorudur.

Həmçinin Azərbaycan Respublikası Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun baş elmi işçisidir.

Ailəlidir, iki oğlu və bir qızı var.

*Namizədliyini özü irəli sürüb.*



**Ənnağı Bahadur oğlu Hacıbəyli**

1955-ci il sentyabrın 3-də Saatlı rayonunda anadan olub.

1978-83-cü illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb.

1984-cü ildən 1988-ci ilə qədər Bakı Dövlət Universitetinin mülki hüquq kafedrasında müəllim işləyib.

1989-1993-cü illərdə Azərbaycan Respublikası Prokurorluğunda şöbə prokuroru, şöbə rəisi vəzifələrində işləyib.

1993-1995-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində İdarə rəisi vəzifəsində işləyib.

1996-cı ildən müstəqil vəkillik fəaliyyəti ilə məşğuldur.

1997-ci ildən Azərbaycan Hüquqçular Assosiasiyasının prezidentidir.

Beynəlxalq Kommersiya Arbitrajı Məhkəməsinin hakimidir.

*Namizədliyini özü irəli sürüb.*



**Əsabəli Mustafayev Qurban oğlu**

9 may 1951-ci ildə Bakı şəhərində anadan olub. 1960-cı ildən Sumqayıt şəhərində yaşayır.
1966-cı ildən əmək fəaliyyətinə başlayıb. Sumqayıt şəhərinin bir sıra müəssisələrində fəhlə, növbə rəisi işləyib.
1981-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 2007-ci ildə Varşava İnsan Hüquqları Ali Məktəbinin məzunu olub.
1982-1993-cü illərdə Sumqayıt şəhər İcraiyyə Komitəsində işləyib.
1993-2003-cü illərdə kiçik müəssisədə hüquqşünas vəzifəsində çalışıb.
2003-cü ildən Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi İctimai Birliyinin təsisçisi və rəhbəridir.
2007-ci ildən Azərbaycan Vəkillər Kollegiyasının üzvüdür.
Rəhbərlik etdiyi təşkilat strateji məhkəmə çəkişmələrinin təşkili, Avropa İnsan Hüquqları Məhkəməsinə şikayətlərin göndərilməsi sahəsində ixtisaslaşıb. Bu günə qədər təşkilat tərəfindən Avropa Məhkəməsinə 52 ərizə göndərilib. Onlardan biri üzrə (Konvensiyanın 2-ci maddəsi) artıq qərar qəbul edilib. Yaxın gələcəkdə daha bir neçə iş üzrə qərarların qəbulu gözlənilir.
Ailəlidir, bir oğlu və bir qızı var.
*Namizədliyi Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi İctimai Birliyi tərəfindən irəli sürülüb.*



**Əyyub Zakir oğlu Kərimov**

18 may 1958-ci ildə Qax rayonunda anadan olub.
1991-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1981-90-cı illərdə Bakı şəhər Suraxanı rayon məhkəməsində iclas katibi işləyib. 1990-cı ilin sentyabrında «Ədalət» qəzetinə işə dəvət olunub və orada müxtəlif rəhbər vəzifələrdə çalışıb. Hazırda 1992-ci ilin aprelindən nəşrə başlayan «Femida» qəzetinin baş redaktorudur.
Redaktorluqla bərabər bir sıra məhkəmə proseslərində qanunu nümayəndə kimi çıxış edib.
«Kor güllə yarası», «Qanuna hörmət qanunu» və digər publisistik kitabların müəllifidir.
«Qızıl qələm» və «Dan ulduzu» mükafatları laureatıdır.
*Namizədliyini özü irəli sürüb.*



**Fuad Şahmirzə oğlu Rəhimov**

4 dekabr 1984-cü il Bakı şəhərində doğulub.
2001-2006-cı illərdə Milli Aviasiya Akademiyasında Beynəlxalq hüquq fakültəsində bakalavr və magistr pilləsində təhsil alıb. 2006-2007-ci illərdə AR Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olub. 2008-2009-cu illərdə Amerika Hüquqşünaslar Assosiasiyasında (ABA CEELI) Hüquqi Yardım Mərkəzində hüquqşünas kimi çalışıb. 2009-cu il sentyabr ayından etibarən "PER consulting servis" hüquq firmasında baş hüquqşünas vəzifəsində çalışır.
*Namizədliyi Aynur Cəfərova irəli sürülüb.*



**Günel Quliyeva**

16 iyul 1980-ci ildə Bakı şəhərində anadan olub.
1997-2002 illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb.
2002-2007-ci illərdə BDU-nun Hüquqi Yardım Klinikasında, Hüquq Maarifçiliyi Cəmiyyətində, Qadın Hüquqşünaslar Assosiasiyasında, ABA-CEELİ-nin hüquqi yardım mərkəzində hüquqşünas vəzifəsində işləyib.
2006-2007 illərdə İngiltərədə Beynəlxalq insan hüquqları üzrə magistr təhsili alıb. 3 ay Londonun INTERIGHTS Təşkilatında təcrübə keçib.
Hazırda "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin hüquqşünasıdır.
*Namizədliyi "Qanun" jurnalı tərəfindən irəli sürülüb.*



**Günel İldırım qızı İsmixanova**

10 sentyabr 1982-ci ildə Laçın rayonunda doğulub.
2004-cü ildə BDU-nun beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsinin bakalavr pilləsini, 2007-ci ildə magistr pilləsini bitirib.

Hazırda BDU-nun Beynəlxalq ümumi hüquq kafedrasının dissertantıdır.
2004-cü ildən, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında çalışır.
2007-ci ildən eyni zamanda Qərb Universitetində pedaqoq kimi fəaliyyət göstərir.
"Gender zorakılığına qarşı mübarizə" (BMT Əhali Fondu UNİFPA) layihəsində və Avropa Komissiyası Hüquqşünas Qadınlar Assosiasiyası İnsan alveri qurbanlarına hüquqi yardım" layihəsi təlimçisidir. 44 elmi məqalənin və 3 monoqrafiyanın müəllifidir.
Ailəlidir, bir qızı var.
*Namizədliyi Hüquqşünas Qadınlar Assosiasiyası tərəfindən irəli sürüb.*



**Hafiz Bəşir oğlu Həsənov**
10 may 1965-ci ildə Gədəbəy rayonunda anadan olub.
1994-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib.
1994-1997-ci illərdə Azərbaycan Demokratiyanın İnkişafı Fondunda hüquq araşdırmalar mərkəzinin rəhbəri olub.
1997-ci ilin mart ayından 2004-cü ilin may ayınadək «Vətəndaş Cəmiyyəti Uğrunda» Müstəqil Məsləhət və Yardım Mərkəzində hüquqşünas-ekspert vəzifəsində işləyir.
Hazırda Hüquq və İnkişaf ictimai birliyinin sədridir.
Seçkilər və bələdiyyələr sahəsində 10-dan artıq broşura və bülletenin müəllifidir. Bu sahədə xeyli dəyirmi masa, seminar və digər tədbirlərdə məruzəçi kimi çıxış edib. QHT-lər, bələdiyyələr və seçkilərlə bağlı bir sıra qanun layihələri üzrə təkliflərin hazırlanmasında iştirak edib.
Ailəlidir, iki oğlu var.
*Namizədliyi Hüquq və İnkişaf ictimai birliyi tərəfindən irəli sürülüb.*



**Xalid Dünyamalı oğlu Ağalıyev**
20 mart 1977-ci ildə Cəlilabad rayonunda doğulub.
1998-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.
1998-2000-ci illərdə "Şərq" qəzetində hüquqşünas, 2002-2004-cü illərdə hüquq şöbəsinin müdiri, 2004-2005-ci illərdə redaktoru vəzifəsində çalışır.
2005-ci ildən Media Hüququ İnstitutunda proqramlar üzrə koordinator vəzifəsində işləyir.
Ailəlidir, bir oğlu var.
*Namizədliyi Media Hüququ İnstitutu tərəfindən irəli sürülüb.*



**İntiqam Kamil oğlu Əliyev**
30 noyabr 1962-ci ildə Biləsuvar rayonunda anadan olub.
1990-cı ilə BDU-nun hüquq fakültəsini bitirib.
1992-ci ildən «Advokat Servis» hüquq firmasının təsisçisi və baş direktorudur.
1998-ci ildən Hüquq Maarifçiliyi Cəmiyyətinin prezidentidir.
Beynəlxalq Kommersiya Arbitrajı Məhkəməsinin hakimidir.
Ailəlidir, bir oğlu və bir qızı var.
*Namizədliyini özü irəli sürüb.*



**İradə Arif qızı Cavadova**
14 yanvar 1964-cü ildə anadan olub.
1991-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. ADU-nun Cinayət hüququ kafedrasında laborant, Məhkəmə ekspertizası institutunda kiçik elm işçi, müdir müavini və şöbə müdiri vəzifələrində, Əhalinin sosial müdafiəsi nazirliyində baş hüquq məsləhətçisi vəzifəsində işləyib.
2001-ci ildən İnsan Hüquqları Sahəsində Maarifləndirmə ictimai birliyinin prezidenti seçilib. 2002-ci ildə Azleks hüquq firmasının prezidentidir.
Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvüdür.
Hüquq elmləri namizədidir.
Bir qızı var.

*Namizədliyi İnsan Hüquqları sahəsində maarifləndirmə ictimai birliyi tərəfindən irəli sürülüb.*



**Lamiyə Qəşəm qızı Bayramova**

1980-ci ildə anadan olub.

2000-ci ildə Xəzər Universitetinin beynəlxalq hüquq ixtisası üzrə bakalavr dərəcəsini fərqlənmə diplomu ilə bitirib. 2000-ci ildə Xəzər Universitetinin magistraturasına daxil olub və 2002-ci ildə hüquqşünaslıq ixtisası üzrə magistr dərəcəsi alıb.

2000-2002-ci ilədək «Bakı İnşaat LTD» Azərbaycan-Türkiyə birgə müəssisəsində hüquqşünas vəzifəsində çalışıb.

2002-2003-cü illərdə «RR&VAM Beynəlxalq» Müstəqil Auditor firmasında hüquqşünas işləyib.

2003-2008-ci illərdə Azərbaycan Respublikası Hesablama Palatasında məsləhətçi işləyib.

2006-cı ildən "Sosial hüquqi islahatlar" Mərkəzinin direktorudur.

Qara Dəniz Ətrafı Ölkələrin Hüquq və Vəkillər Assosiasiyaları İdarə Heyətində AHA-nın nümayəndəsidir.

*Namizədliyi Azərbaycan Hüquqçular Assosiasiyası tərəfindən irəli sürülüb.*



**Leyla Rəşid qızı Mədətli**

23 oktyabr 1980-ci ildə Bakı şəhərində anadan olub.

1997-2001-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr pilləsində, 2001-2003-cü illərdə magistratura pilləsində təhsil alıb.

2003-2005-ci illərdə Hüquq Maarifçiliyi Cəmiyyətində hüquq məsləhətçisi kimi çalışıb və insan hüquqları üzrə bir sıra layihələrdə iştirak edib. 2005-2006-cı illərdə "AtaKonsaltinq" MMC-də hüquq məsləhətçisi və Hüquqi Xidmətlər Departamentinin rəhbəri işləyib. 2006-2007-ci illərdə ATƏT-in dəstəyi ilə gerçəkləşən Məhkəmələrin Monitorinqi layihəsində milli koordinator işləyib.

2007-2008-ci illərdə İngiltərənin Esseks Universitetində Beynəlxalq İnsan Hüquqları üzrə magistr dərəcəsi alıb.

Hazırda Media Hüququ İnstitutunda hüquqçu kimi fəaliyyət göstərir.

*Namizədliyi Media Hüququ İnstitutu tərəfindən irəli sürülüb.*



**Müzəffər Qiyas oğlu Baxışov**

5 noyabr 1961-ci ildə Masallı rayonunda anadan olub.

1989-cu ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.

1989-cu ilin sentyabr ayından 2002-ci ilin may ayına kimi prokurorluq orqanlarında müxtəlif vəzifələrdə işləyib.

2002-ci ilin may ayından Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyində işləyir. O bu müddətdə Təşkilatın Direktoru, Hüquqi yardım Departamentinin rəhbəri və Təşkilatın Baş məsləhətçisi vəzifələrində işləyib. Birliyin 10-dan çox nəşrinin tərtibatçısı və məsul redaktoru olub.

2007-ci ilin noyabr ayından Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

Ailəlidir, iki oğlu və bir qızı var.

*Namizədliyi Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyi tərəfindən irəli sürülüb.*



**Namizəd Heydər oğlu Səfərov**

10 yanvar 1955-ci ildə anadan olub.

1982-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.

1982-1985-ci illərdə Azərbaycan Respublikası Culfa rayon Polis Şöbəsinin müstəntiqi, 1985-1990-cı illərdə Bakı şəhər Qaradağ rayon MTMBM-nin hüquqşünası vəzifəsində çalışıb. 1990-cı ildən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, 1995-ci ildən Rəyasət Heyətinin üzvü olub. 2006-cı ildə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə 12 saylı hüquq məsləhətxanasının müdirinin demokratik yolla seçkisində iştirak etdiyinə görə Vəkillər Kollegiyasından xaric edilib. Hazırda müstəqil şəkildə hüquq praktikası ilə məşğul olur.

Beynəlxalq Kommersiya Arbitrajı Məhkəməsinin hakimidir.

Ailəlidir, iki qızı, bir oğlu var.
*Namizədliyi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Sadiq Bağırov tərəfindən irəli sürülüb.*



**Nemət Əliş oğlu Heydərov**
20 avqust 1978-ci ildə anadan olub.
1999-cu ildə Azərbaycan Universitetinin hüquq fakültəsini bitirib.
2000-2006-cı illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində hüquqşünas, 2006-2007-ci illərdə Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsində hüquqşünas vəzifəsində işləyib.
2009-cu ildən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvüdür.
Ailəlidir, bir oğlu, bir qızı var.
*Namizədliyi Advokat Servis hüquq firması tərəfindən irəli sürülüb.*



**Nurlana Tofiq qızı Əliyeva**
2 fevral 1983-cü ildə Ağdam rayonunda anadan olub.
2004-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr pilləsi üzrə təhsil alıb.
2006-cı ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin magistr pilləsini bitirib.
2006-cı ildə Nizami rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzində baş məsləhətçi işləyib.
2006-cı ilin iyul ayından Hüquq Maarifçiliyi Cəmiyyətində hüquqşünas vəzifəsində işləyir.
*Namizədliyi Hüquq Maarifçiliyi Cəmiyyəti tərəfindən irəli sürülüb.*



**Rəşid Ramazan oğlu Hacılı**
27 dekabr 1962-ci ildə anadan olub.
1990-cı i Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.
1988-1990-cı illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının tarix institutunda işləyib.
1990-1991-ci illərdə Prezident Aparatında məsləhətçi vəzifəsində çalışıb.
1991-2003-cü illərdə müxtəlif kommersiya qurumlarında çalışıb.
2003-2005-ci illərdə İnternyusun Media Hüquqları İnstitutunun direktoru, 2003-cü ildən bu günə qədər Media Hüququ İnstitutunun direktorudur.
Beynəlxalq Kommersiya Arbitrajı Məhkəməsinin hakimidir.
Ailəlidir, iki qızı, bir oğlu var.
*Namizədliyini özü irəli sürüb.*



**Ruzi Emin oğlu Səmədov**
22 dekabr 1985-ci il Bakı şəhərində anadan olub.
2003-2007-ci illərdə Bakı Dövlət Universitetində beynəlxalq hüquq üzrə bakalavr pilləsində təhsil alıb.
2007-2008-ci illərdə hərbi xidmət keçib.
2008-2010-cu illərdə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq üzrə magistr pilləsində təhsil alıb. Beynəlxalq Cinayət hüququ üzrə ixtisaslaşır.
2008-2009-cu illərdə müxtəlif firmalara müstəqil şəkildə hüquqi yardım göstərib.
2009-cu ildən 5 saylı hüquq məsləhətxanasında vəkil köməkçisi və "IL konsaltansi" hüquq firmasının həmtəsisçisi və direktorudur.
*Namizədliyi Aynur Cəfərova irəli sürülüb.*



**Sadiq Tofiq oğlu Bağırov**
27 iyul 1982-ci ildə Ermənistan Respublikasının Mehri rayonunda anadan olub.
2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin hüquq fakültəsinin bakalavr pilləsi üzrə təhsil alıb.
2006-cı ildə Azərbaycan Beynəlxalq Universitetinin hüquq fakültəsinin

magistr pilləsini bitirib.
2009-cu ildə Odlar Yurdu Universitetinin hüquq fakültəsinin aspirantura pilləsini bitirib.
2003-2006-cı illərdə "FAB" firmasında hüquqşünas vəzifəsində çalışıb.
2006-cı ilin iyul ayından Hüquq Maarifçiliyi Cəmiyyətində hüquqşünas vəzifəsində işləyir.
2009-cu ilin avqust ayından Vəkillər Kollegiyasının üzvüdür.
Ailəlidir, bir qızı var.
*Namizədliyi Hüquq Maarifçiliyi Cəmiyyəti tərəfindən irəli sürülüb.*



**Samir Nadir oğlu İsayev**
4 mart 1963-cü ildə Sumqayıt şəhərində doğulub.
1989-cu ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1989-1998-ci illərdə DİN-də müstəntiq vəzifəsində çalışıb.
1998-2005-ci illərdə BMT İnkişaf Proqramının, Dünya Bankının, ABŞ BİA-nin, Beynəlxalq Ərzaq Proqramının, Aİ-nın müxtəlif layihə və proqramlarında layihə direktoru, qrup rəhbəri, uzun müddətli ekspert vəzifələrində işləyib.
2002-2005-ci illərdə "ELC" hüquq konsaltinq şirkətinin Xəzər dənizi hövzəsində, Qazaxıstan, Özbəkistan, Qırğızıstanda hasilat sənayesi ilə bağlı layihələrində qanunvericiliklə bağlı sənədləşmələri aparılmasına rəhbərlik edib.
2006-cı ildən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvüdür.
2009-cu ildən "Hüquqi düşüncə" İctimai Birliyinin sədri və layihə direktoru vəzifəsində işləyir.
Ətraf mühit hüququ, Qlobal ekoloji hüquq üzrə Azərbaycanda və xaricdə nəşr olunan 24 tədqiqat əsərinin müəllifi və ya müəlliflərindən biriyəm. Azərbaycanda və xaricdə hüquq və siyasət mövzusunda 35 məqaləm dərc olunub. Qazaxıstanda, Türkiyədə, Gürcüstanda və Azərbaycanda beynəlxalq ekspert kimi beynəlxalq və milli ekoloji hüququn müxtəlif sahələri üzrə treninqlər aparıb.
Milli Məclisdə müstəqil ekspert kimi 5 qanunun və Ekologiya və Təbii Sərvətlər Nazirliyində müstəqil ekspert kimi 1 Dövlət Proqramının və 18 Nazirlər Kabinetinin hazırlanmasında iştirak edib.
Ailəlidir, bir oğlu və bir qızı var.
*Namizədliyini özü irəli sürüb.*



**Selcan Zeynal qızı Məmmədli**
17 noyabr 1980-ci ildə Bakı şəhərində anadan olub.
1997-2001-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr pilləsində, 2001-2003-cü illərdə magistratura pilləsində təhsil alıb. Bir sıra layihələrdə hüquq məsləhətçisi kimi çalışıb. BDU-nun hüquq fakültəsinin "Cinayət prosesi və kriminalistika" kafedrasının aspirantıdır. Hüquq sahəsində bir sıra elmi və publisistik məqalələrin müəllifi, eləcə də iki kitabın həmmüəllifidir.
2006-2008-ci illərdə ADİSAD hüquq firmasında hüquqşünas işləyib.
2006-2008-ci illərdə Amerika Hüquqşünaslar Assosiasiyasının (ABA CEELİ Bakı Ofisində layihə rəhbəri vəzifəsində çalışıb.
2008-2009-cu illərdə ABŞ-ın ali təhsil müəssisələrindən birində təhsil alıb. Hazırda müstəqil hüquqşünas kimi fəaliyyət göstərir.
*Namizədliyi Hüquq Maarifçiliyi Cəmiyyəti tərəfindən irəli sürülüb.*



**Şahbaz Xudu oğlu Əliyev**
24 iyun 1968-ci ildə Yardımlı rayonunda anadan olub.
1993-1995-ci illərdə isə Xarici Dillər Universitetinin yayında xarici dillər (ingilis) kursunda ali təhsil alıb.
1999-cu ildə Təfəkkür Universitetinin hüquq fakültəsində bitirib.
2002-ci ildə Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə magistraturasını bitirib.
1992-ci ildə "Qanun" jurnalında müxbir, 1994-cü ildə redaktor müavini vəzifələrində çalışıb. 1995-ci ildən həmin jurnalın baş redaktorudur.
Ailəlidir, bir oğlu və bir qızı var.
*Namizədliyi "Qanun" jurnalı tərəfindən irəli sürülüb.*



**Şəfa Məhəmmədəli qızı Camalzadə**
6 may 1981-ci ildə Cəbrayıl rayonunda anadan olub.
1999-2003-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavr pilləsində, 2003-2005-cü illərdə magistratura pilləsində təhsil alıb. 2004-2005-ci illərdə "Advokat Servis" hüquq firmasında və Hüquq Maarifçiliyi Cəmiyyətində hüquqşünas kimi çalışıb.
2005-2006-cı illərdə ABŞ-ın Ştat Məhkəmələri Üzrə Milli Mərkəzin Azərbaycanın Qanunvericilik Bazası Layihəsində hüquqşünas redaktor kimi fəaliyyət göstərib.
2006-cı ildən ABA-CEELL-nin Hüquqi Yardım Mərkəzində hüquqşünas vəzifəsində çalışır.
2009-cu ildən Vəkillər Kollegiyasının üzvüdür.
Ailəlidir, bir qızı var.
*Namizədliyi Selcan Məmmədli tərəfindən irəli sürülüb.*



**Vidadi Mircamal oğlu Mirkamal**
1954-cü ildə Gəncə şəhərində anadan olub.
Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinin əyani şöbəsini bitirib.
1978-2001-ci illərdə hüquq fakültəsinin baş müəllimi, 1990-1992-ci illərdə hüquq fakültəsində dekan müavini işləyib. 1992-2000-ci illərdə Azərbaycan Respublikasının İqtisad Məhkəməsinin sədrinin müavinin, təsərrüfat mübahisələrinin həlli üzrə kollegiyanın sədri işləyib.
2000-ci ildən indiyədək "Arbitr" hüquq şirkətinin prezidentidir.
Mülki prosessual hüquq, arbitraj prosesi, təsərrüfat hüququ üzrə 50-dək elmi əsərləri vardır. "Arbitraj prosesi", "Müqavilə hüququ", "Kommersiya hüququ", Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktiki kommentariyası" kitablarının müəlliflərindən biridir.
Beynəlxalq Kommersiya Arbitrajı Məhkəməsi Sədrinin birinci müavinidir.
İstefada olan ədliyyə generalıdır. Evlidir, 2 oğlu və 1 qızı var.
Evlidir, iki oğlu, bir qızı var.
Ailəlidir, bir oğlu, bir qızı var.
*Namizədliyini özü irəli sürüb.*



**Zaur Araz oğlu Qurbanlı**
12 yanvar 1987-ci ildə doğulub.
2003-2007-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində bakalavr pilləsində təhsil alıb.
2008-2009-cu illərdə Sumqayıt şəhər məhkəməsində Məhkəmə icraçıları şöbəsində çalışıb.
2010-cu ildən "Unibank" ASC KB-da hüquqşünas vəzifəsində çalışır.
*Namizədliyi Aynur Cəfərova tərəfindən irəli sürülüb.*